BAFCO

№ 16/07/24 "16" "iyul" 2024

## "Bafco İnvest" Məhdud Məsuliyyətli Cəmiyyət

## barədə məlumat

"BAFCO İnvest" MMC 2023-cü ilin əvvəlində Ağdam Sənaye Parkının rezident statusunu almışdır. Sənaye Parkının 2,4 hektar ərazisində yerləşən fabrik müxtəlif iqtisadiyyat sahələrində istifadəyə uyğun, xüsusi ucluqlu və altlıqlı qoruyucu işçi ayaqqabılarının, o cümlədən poliuretan çəkmələrin istehsalı ilə məşğuldur.

İstehsal prosesi və keyfiyyətə nəzarət, bu sahədə 30 illik təcrübəyə malik olan yüksəkixtisaslı yerli və xarici mütəxəssislər tərəfindən idarə olunur. Bu isə keyfiyyət və etibarlılıq baxımından yüksək tələblərə cavab verən məhsulların istehsal olunmasına təkan verir.

Fabrikdə Almaniya markasına aid "DESMA 622/24" və "DESMA B512/12 avadanlıq modelləri quraşdırılıb. Sənaye və tikinti müəssisələri, dəmir yolları, istehsalat, kənd təsərrüfatında və digər sahələrdə çalışan işçilər üçün istehsal olunan ayaqqabılar, yüksək keyfiyyətli materiallardan hazırlanır və aşınma, sürtünmə, deşilmə, bakteriyalara, benzin, yağ, zərbələrə və digər təsirlərə davamlıdır. Altlığı inyeksiya üsulu ilə birləşdirilən ayaqqabılar ən yüksək təhlükəsizlik və etibarlılıq tələblərinə cavab verərək, çətin şəraitdə çalışan və ayaqlarının güvənli qorunmasını tələb edən işçilər üçün nəzərdə tutulub. Ayaqqabı altlıqları üçün istifadə olunan poliuretan Almaniyada fəaliyyət göstərən BASF şirkətindən sifariş olunur. PU (poliüretan) və TPU (termoplastik poliuretan) - bunlar dayanıqlılıq, aşınmaya davamlılıq və yüksək amortizasiya təmin edən materiallardır.

Almaniyanın tanınmış son nəsil Desma markasının avadanlıqları ilə təchiz olunan fabrikin illik istehsal gücü 510 000 cüt ayaqqabı təşkil edir.

Address: Azerbaijan, Aghdam, Aghdam Industrial Park, Zip Postal Code AZ0200

E-mail: info@bafco.az | www.bafco.az

“Bafco Invest”-in təklif etdiyi məhsullar müxtəlif sahələrdə işçilərin maksimum təhlükəsizliyini və komfortunu təmin etmək üçün ideal seçimdir. "Made in Azerbaijan" adı altında istehsal edilən ayaqqabıların daxili bazarda satılması ilə yanaşı, xarici ölkələrə ixracı da nəzərdə tutulub.

**Hörmətlə,**

**“Bafco İnvest” MMC-nin direktoru**

**Allahverdiyev Elnur Elman oğlu**

**İmza:**

**Möhür:**

| | Sınaq protokolu | |
|---|---|---|
| azstand AZƏRBAYCAN STANDARTLAŞDIRMA İNSTİTUTU | | |
| | Səhifə sayı | 3 |
| | Sınaq protokolu № | 1/000172/24 |

**Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi**
**“Azərbaycan Standartlaşdırma İnstitutu” publik hüquqi şəxs**

**“TƏSDİQ EDİRƏM”**
**Laborator. Sınaq şöbəsinin**
**müdiri v.m.i.e**
**Rzayeva M.**
**________ 2024-cü il**

**Sınaq protokolu № 1/000172/24**

| | |
|---|---|
| Məhsulun adı | 44 ölçülü xüsusi işçi ayaqqabısı –model 23 A, S 3 (BFA 1020) |
| Partiyanın miqdarı | 10 cüt |
| Seçilmiş məhsul nümunələrinin miqdarı (qablaşdırma) | 1 cüt |
| Müəssisənin adı | “BAFCO İNVEST” MMC |
| İstehsalçı müəssisənin ünvanı | AR,Ağdam r-nu,Ağdam şəh.,ev Ağdam Sənaye Parkı |
| Normativ sənədlərin adı və işarəsi | İSO 20345:2021 |
| Nümunə kim tərəfindən təqdim olunub | Azərbaycan Standartlaşdırma İnstitutu” Publik hüquqi şəxsin Uyğunluğun qiymətləndirilməsi departamenti |
| Nümunələrin götürülməsi barədə akt və aktın tarixi | 03.07.2024 |
| Nümunələrin laboratoriyaya təqdim olunduğu tarix | 03.07.2024 |
| Sınaq protokolunun tərtib olunduğu tarix | 03.07.2024 - 08.07.2024 |

Laboratoriya müdirinin (uyğunluğun qiymətləndirilməsi orqanının rəhbərinin) yazılı icazəsi olmadan Sınaq protokolunun surəti çıxarılaraq qismən çoxaldılması qadağandı İmzasız və möhürsüz olan bütün protokollar etibarsızdır.
Bir nüsxəsi sifarişçiyə verilməklə, bir nüsxəsi laboratoriyada saxlanılmaqla sınaq protokolu 2 nüsxədən artıq çap edilə bilməz.
Nəticə yalnız təqdim edilmiş nümunəyə şamil edilir, laboratoriya nümunə götürülməsindən cavabdeh deyil.
Sınağın nəticələrinə etiraz _7_ gün müddətinə Yüngül sənaye məhsullarının sınaq laboratoriyasına bildirilməlidir.
Müəyyən edilmiş müddətdən sonra şikayətlər əsassız sayılır və qəbul edilmir.